# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

***Qəbələ rayonunun sürətli inkişafı ulu öndərimiz Heydər Əliyevin bu rayonun gələcəyi ilə bağlı müəyyən etdiyi inkişaf proqramının nəticəsidir. Qəbələdə çəkilən yollar, salınan parklar və xiyabanlar, tikilən yeni binalar və sənaye müəssisələri həmin proqramın real həyatımızda təsdiqidir.***

**İlham ƏLİYEV.**

(Əvvəli 2-ci səhifədə).

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 2.094 manat təşkil etmişdir.

İl ərzində sənaye müəssisələrində çalışan 1.397 nəfər işçinin orta aylıq nominal əmək haqqı 336 manat olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 82.690,0 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 81.225,0 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabr ayından 1 yanvar 2018-ci ilədək 14.907-si daimi olmaqla, 16.706 yeni iş yeri açılmışdır. İl ərzində açılmış yeni iş yerlərinin sayı 1.641 olmuşdur ki, həmin iş yerlərinin hamısı daimidir.



Qəbələ Rayon Məşğulluq Mərkəzində qeydiyyatdan keçmiş 1.280 nəfər işaxtarandan 452 nəfəri münasib işlə təmin edilmiş, 52 nəfərə işsizlik ststusu verilmiş, 62 nəfər işsiz vətəndaşa müavinət təyin olunmuşdur.

2017-ci il ərzində rayon üzrə mənzil istismar və kommunal müəssisələr kombinatında 108 nəfər, Qəbələ Təmir Tikinti Şirkəti MMS-də 110 nəfər, 6 saylı Texnoloji Nəqliyyat Departamentində 25 nəfər, "Azərişıq" ASC-nin Şimal-Qərb Regional Elektrik Təchizatı və Satışı İdarəsində 7 nəfər, Qəbələ Beynəlxalq Hava Limanında 20 nəfər müvafiq işlə təmin olunmuşdur. Hazırda 2016-2017-ci illərdə yaradılmış yeni iş yerlərində işlə təmin olunmuş vətəndaşlardan Qəbələ Qaz Xidmət sahəsində 111 nəfərin, Qəbələ Suvarma Sistemləri İdarəsində 18 nəfərin, 10 nömrəli Yol İstismarı MMC-də 28 nəfərin, "Azərsu" ASC-də 7 nəfərin, "Azərişıq" ASC-də 28 nəfərin, "Azərenerji" ASC-də 1 nəfərin, "Azəristilik" ASC-də 3 nəfərin müqaviləsi yenidən 1 il müddətinə uzadılmışdır. Beləliklə 2017-ci ildə yeni yaradılmış iş yerlərində müqaviləsi uzadılmış və işlə təmin olunmuş vətəndasların sayı 466 nəfər olmuşdur.

Rayonun yerli gəlirləri 2017-ci ilin yekunlarına görə 13.317,0 min manat proqnoza qarşı 13.396,6 min manat (100,6 %) və ya 79,6 min manat çox yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 6.820,0 min manat proqnoza qarşı 6.719,9 min manat (98,5 %) və ya 100,1 min manat az, yerli xərcləri 6.820,0 min manat proqnoza qarşı 6.504,2 min manat (95,4 %) və ya 315,8 min manat az icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 6.462,0 min manat proqnoza qarşı 6.650,9 min manat (102,9 %) və ya 188,9 min manat çox icra olunmuşdur.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

İl ərzində bütün növ istehlakçı qruplar tərəfindən 113.917,6 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 9.585,6 min manata qarşı 8.695,9 min manat vəsait toplanaraq yığım planı 90,7 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 69,6 %, dövlət müəssisələri üzrə 73,7 %, ticarət xidməti üzrə 91,9 %, özəl sənaye üzrə 92,0 %, əhali qrupu üzrə isə 98,1 % olmuşdur.

10/6 kV-luq hava xəttinin 22,5 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq Qəbələ şəhər, Vəndam, Nic, Bum qəsəbə, Zarağan, Mıxlıqovaq, Dizaxlı, Tüntül, Zalam kənd elektrik verilişi xətlərində 290 ədəd fiziki köhnəlmiş ağac dayaq metal dayaqlarla əvəzlənmiş, 21 km məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 53,5 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş və istismara yararsız naqillər yenilənmiş, 787 ədəd fiziki köhnəlmiş ağac dayaqlar yeni müasir tipli dəmir beton və dəmir dayaqlarla əvəz edilmişdir. 270 ədəd transformator yarımstansiyasının qoruq zonası alaq otlarından və kollardan təmizlənmiş, 82 km məsafədə 0,4 kV-luq hava xəttinin ağac kütlələri ilə təmasdan təmizlənməsi işləri aparılmışdır. 10 kV-luq Mıxlıqovaq, Dizaxlı, Zarağan kənd və Qəbələ şəhər hava xətti üzərindəki 7 ədəd transformatorun 0,4 kV-luq paylayıcı hava xətləri izolyasiyalı naqillərlə əvəzlənmişdir. Əhali sektorunda 656 ədəd yeni sayğac quraşdırılmış, 2.533 ədəd qüsurlu sayğac yenisi ilə əvəzlənmişdir.

Təbii qaz istehlakçıları tərəfindən 42.869,1 min kubmetr təbii qaz istehlak edilmiş, 6.489,7 min manata qarşı 6.329,9 min manat vəsait toplanaraq ümumi yığıma 97,5 % əməl olunmuşdur. Həmin göstərici əhali sektoru üzrə 93,8 %, büdcə təşkilatları üzrə 107,2 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə 105,8 %, kommunal təşkilatlar üzrə isə 146,6 % olmuşdur.

İl ərzində 1.554 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 18.097-yə çatdırılmışdır. Qəbələ Xidmət Sahəsi tərəfindən müxtəlif diametrli borularla 1.940 p/m yeni xətt çəkilmiş, 20 ədəd təzyiq tənzimləyicisi quraşdırılmışdır. Dövlət Proqramı üzrə Azəriqaz İstehsalat Birliyinin sifarişi ilə 1.133, fərdi qaydada 421, ümumilikdə 1.554 əhali abonenet və 17 qeyri əhali abonenet qazla təmin olunmuşdur.

Qəbələ Su-kanal İdarəsi tərəfindən Qaraçay və Duruca su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, qurğularda cari təmir işləri görülmüşdür. Şəhərin Nizami Gəncəvi, Heydər Əliyev, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, İsmayıl bəy küçələrində su xətlərində və mərkəzi kanalizasiya xətlərində təmir-bərpa işləri aparılmışdır. Muxtar Abduyev küşəsində gücü 100 kubmetr olan su nasosu təmir edilərək istifadəyə verilmiş, müxtəlif diametrli 52 metr kanalizasiya xətti bərpa olunmuşdur. Zarağan kəndindəki məcburi köçkünlər şəhərciyində 1 ədəd su nasosu dəyişdirilmiş, şəhər ərazisində 406 ədəd su sayğacı quraşdırılmışdır. Hazırda şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması istiqamətində ikinci mərhələ üzrə işlərə başlanmış, müxtəlif diametrli borularla 8.000 p/m su xətti, 6.500 p/m kanalizasiya xətti çəkilmişdir. İl ərzində 548,1 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 97,0%-i yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 94%, büdcə təşkilatları üzrə 100%, kommersiya və digər təşkilatlar üzrə 99 % təşkil etmişdir.



**Qəbələdə "Poeziya günü"**

(Ardı 4-cü səhifədə).